

*Müzahim İsmayılzadə*

# 20 Yanvar etüdləri

I

Saxtalı,
çovğunlu,
bir az da Günəşli böyük çillədə
20 yanvar gününün yasına
bir yasda gəldi.
Fəsillər dalaşdı
başı üstündən,
nə yaz,
nə yay,
nə payız -
yenə də qış gəldi.
Dişidə silahlanmış
düşmən əsgərlərinin
topu, tankı, tüfəngi
əliyalın oğullara,
daşa, ağaca, binaya
qorxu bilməyən küçələrə
yuxu yatmayan gecəyə -
yamanca tuş gəldi
Pəncərədən baxıram
1990-cı ilin 20 yanvarına -
Yer də, yurd da xatirə!
Xatirələr daş üzlü,
Xatirələr daş sözlü -
Pəncərədən daş gəldi.
Bu da Qərənfil yağışı
Qızılgül dəstələnmir,
bəzənmir,
Hamısı yol boyunca,
hamısı yan-yanadı,
üz qoyub torpaq üstə,
ölümdən də gizlənmir -
ay aman -
xumar gözdən, ay aman,
qıpqırmızı yaş gəldi.

II

Şəhərin şimal ağzı,
geniş bir dairə
Beş-altı qarasaç oğlan,
yanlarında
quru odun taxtaları,
yarım litrlik şüşədə
yarımçıq neft,
üç-dörd qırıq vedrə.
Barrikada qurublar
köhnə PAZ avtobusundan,
bir də KAMaz-dan.
gediş-gəliş bağlanıb.
Göy üzü qapqara,
Dənizdən əsən külək
ilikləri dondurur.
Əyin-başları da yoxdu -
Odunları ocağa atmaqla
qızınırlar.
Bir azdan yoldaşları gələcək,
sıraları genələcək.
Biz PAZ avtobusu,
bir KAMaz-la,
yarımçıq neft şüşəsiylə,
odun parçaları ilə
bir ordunu saxlamaq
olarmı?
Bu dairəni ötdünmü,
iki addımlıqdadı şəhər.
Düzünə getsən
Sonu Azadliq meydanıdı,
O qış gecəsi
qarasaç oğlanlar ocaq başında
"Azadlıq" mahnısı oxuyurdular.
"A-zad-lıq!"

III

Vera Bessantina?
körpə qızcığaz -
cizgi filmini
yarımçıq qoyub
eyvandan tamaşa edirdi
20 yanvar qırğınına.
Tank atır,
tüfənf atır,
elə bil göy yerə enib -
güllələr ulduzlardan çox.
səs-küydən qulaq batır.
Bu hansı davalı kinodu?
Körpə qızcığaz
yarımçıq baxdı?!

IV

Məni qınamayın!
"Leyli və Məcnun",
"Əsli və Kərəm",
o biriləri heç demirəm,
gözəldi, gözəldi,
Ancaq
hamısı yalandı
"İlham və Fərizə"
dastanının yanında!

Ədalət.- 2017.- 19 yanvar.- S. 3.